8 NOYABR ZƏFƏR GÜNÜDÜR!

43 (1298) 3-15 noyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet Qiyməti razılaşma yolu ilə Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTAN RESPUBLİKASINDA SƏFƏRDƏDİR

Noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstanda səfərdədir.

## "QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI ƏLAMƏTDAR HADİSƏDİR"




Azərbaycan Prezidenti İlham Əliyev 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının açılışını əlamətdar hadisə adlandırıb.

*"Bu gün biz nisbətən qısa zamanda, təxminən ilyarımdan bir qədər çox müddət ərzində Abşeron yarımadasının bu boş hissəsinin yaşıl enerji mənbəyinə çevrildiyini görəndə çox qürur duyuruq. Bu, əlamətdar nailiyyətdir"*, - deyə dövlətimizin başçısı Stansiyanın rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı Azərbaycanın inkişafına verdiyi bu möhtəşəm töhfəyə görə, həmçinin yaşıl enerjiyə keçidlə bağlı ölkəmizə sadiqliyinə görə "Masdar"ı, onun rəhbərliyini təbrik edib.

Qonaqlar arasında Birləşmiş Ərəb Əmirlikləri hökumətinin dörd nazirinin yer aldığını vurğulayan Azərbaycan Prezidenti bunun tərəfdaşlığın və dostluğun yaxşı nümunəsi olduğunu, eləcə də hər iki ölkənin bugünkü mərasimə böyük əhəmiyyət verdiyini nümayiş etdirdiyini bildirib.

## "BİZ YAŞIL GÜNDƏLİYƏ DOĞRU İRƏLİLƏYİRİK. BU, MƏQSƏDLİ SEÇİMDİR"

*"Bugünkü layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir. Qeyd etdiyim kimi, bu gün üç investisiya sazişi imzalanacaq, lakin bizim planlarımız daha genişdir. Biz mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işləməyi planlaşdırırıq"*.

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı səsləndirib.

Bunun regionun enerji inkişafında tam bir inqilab olacağını diqqətə çatdıran dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan dünyada ilk dəfə 19-cu əsrin ortalarında neftin istehsal olunduğu ölkədir.

*"İndi bizim zəngin yanacaq ehtiyatlarımızın olduğunu nəzərə alaraq, biz yaşıl gündəliyə doğru irəliləyirik. Bu, məqsədli seçimdir. Bu, bizim təkcə Azərbaycanın gələcək inkişafına deyil, həm də iqlim dəyişikliyi ilə bağlı məsələlərə töhfəmizdir"*, - deyə Azərbaycan Prezidenti bildirib.

## GƏLƏN İL AZAD OLUNMUŞ ƏRAZİLƏRİN YENİDƏN QURULMASI VƏ BƏRPASINA 4 MİLYARD MANAT AYRILACAQ

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması üçün dövlət büdcəsindən ayrılacaq vəsaitin həcmi məlum olub.



Bu, Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında əksini tapıb.

İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidən qurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədilə 2024-cü ilin dövlət büdcəsindən 4 milyard manat vəsait ayrılması nəzərdə tutulub.

## AZƏRBAYCAN İLƏ PAKİSTAN ARASINDA HƏRBİ SƏNAYE SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ UĞURLA DAVAM EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Munini qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirib.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirib. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirib.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxunub.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq, Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd edib.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırıb, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd edib. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək, Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğulayıb.

## "AZƏRBAYCANA ÜMUMİ İNVESTİSİYALAR 300 MİLYARD ABŞ DOLLARINDAN ÇOX OLUB"

*"Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür"*.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir.

*"Eyni zamanda, biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik"*, - deyə Prezident İlham Əliyev əlavə edib.

## "İŞĞALDAN AZAD EDİLMİŞ QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA HİDROENERJİ POTENSİALIMIZI FƏAL ŞƏKİLDƏ İNKİŞAF ETDİRİRİK"

*"Bizim bərpa olunan enerji gündəliyimiz təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır. Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk"*.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib.

Artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarının istismara verildiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq.

*"Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub"*, - deyə Azərbaycan Prezidenti əlavə edib.

## AZƏRBAYCANIN MÜDAFİƏ POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNƏ AYRILACAQ VƏSAİTİN HƏCMİ AÇIQLANIB

Bu barədə Maliyyə Nazirliyinin açıqladığı 2024-cü ilin dövlət büdcəsinin layihəsində bildirilib. Belə ki, müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsinin əsaslı xərclərindən qarşıda duran vəzifələrə və bağlanılmış müqavilələrə uyğun olaraq xüsusi müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyə təminatı üçün 3 milyard manat məbləğində vəsait proqnozlaşdırılır.



# Yaponiya şirkətlərinin Azərbaycanın azad olunmuş ərazilərində müxtəlif layihələrdə iştirakını gözləyirik



***"Yaponiya ilə Azərbaycan arasında yaşıl enerji, kənd təsərrüfatı, logistika sahəsində münasibətləri inkişaf etdirmək istəyirik. Eyni zamanda, azad olunmuş ərazilərdə, Naxçıvan kimi bölgələrdə də Yaponiya şirkətlərinin müxtəlif layihələrdə iştirakını gözləyirik".***

Bu sözləri jurnalistlərə açıqlamasında Yaponiyanın ölkəmizdəki səfiri Cuniçi Vada deyib.

O, Bakıda keçirilən "Yapon mədəniyyəti və "Şişimai" - ənənəvi yapon şir rəqsi" konserti kimi tədbirlərin iki ölkə arasındakı münasibətləri daha da dərinləşdirdiyini deyib.

Cuniçi Vada qeyd edib ki, artıq 30 ildir Yaponiya ilə Azərbaycan arasında diplomatik münasibətlər qurulub. Həm siyasi, həm də iqtisadi sahədə çox gözəl münasibətlər var. İki ölkə arasında iqtisadi münasibətlərdən danışan diplomat deyib: "İndiyə qədər daha çox neft-qaz sahəsində münasibətlər inkişaf edirdi. Bundan sonra isə daha çox "yaşıl enerji", kənd təsərrüfatı, logistika sahələrində bu əlaqələri inkişaf etdirmək istəyirik. Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə, Naxçıvanda da Yaponiya şirkətlərinin müxtəlif layihələrdə iştirakını gözləyirik.

# "Aztelekom" Şuşa şəhərini yüksəksürətli internetlə təmin edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin qarşısında duran prioritet məsələlərdən biri də işğaldan azad edilmiş ərazilərdə telekommunikasiya sahəsinin inkişafıdır.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin əsas tərkib hissəsi kimi "Aztelekom" MMC tərəfindən Şuşa şəhərində ilkin olaraq 500 evdə GPON (Gigabit Passive Optical Networks) texnologiyasının tətbiq olunması üçün layihə hazırlanıb və şəbəkə quraşdırılıb. Hazırda Şuşa şəhərində 99 abunəçi GPON texnologiyası xidmətlərindən yararlanır.

# 2025-ci ildə ÜDM-in artımı 4 faiz proqnozlaşdırılır




Azərbaycan Mərkəzi Bankı (AMB) 2025-ci ilə qədər ölkəmizdə Ümumi Daxili Məhsulun (ÜDM) artımının 4 faiz təşkil edəcəyini proqnozlaşdırır.

Bu barədə Azərbaycan Mərkəzi Bankının sədri (AMB) Taleh Kazımov noyabrın 1-də keçirdiyi mətbuat konfransında bildirib.

*"ÜDM artımının 2023-cü ildə 1,5 faiz, 2024-cü ildə 3,5 faiz, 2025-ci ildə 4 faiz olacağı proqnozlaşdırılır. Qeyri-neft ÜDM-i 2023-cü ildə 3 faiz, 2024-cü ildə 6 faiz, 2025-ci ildə 5,5 faiz səviyyəsində olacaq"*, - deyə T.Kazımov qeyd edib.

# Növbəti iki ildə Azərbaycanın xarici dövlət borcu əhəmiyyətli dərəcədə azalacaq

"Növbəti iki ildə bizim xarici dövlət borcumuz əhəmiyyətli dərəcədə azalacaq və təxminən 5 milyard dollar səviyyəsinə qədər enə bilər. Hazırda Azərbaycanın xarici dövlət borcu 6,5 milyard dollar səviyyəsindədir".

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin noyabrın 2-də keçirilən iclasında maliyyə naziri Samir Şərifov deyib.

O bildirib ki, ümumi dövlət borcunun ÜDM-ə nisbəti son günlərə qədər 14,4 faizə bərabər idi. Burada xarici dövlət borcunun payına 9,3 faiz, daxili dövlət borcunun payına isə 5,1 faiz düşür.

***"Bizim ortamüddətli proqnozlara nəzər yetirsək, görərik ki, dövlət borcunun bir qədər artımı proqnozlaşdırılır. Bunun iki səbəbi var. Əsas səbəb ondan ibarətdir ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən müvafiq təkliflər qəbul edilib. Bizim borclanma siyasətimizdə dəyişikliklər edilib. Bununla borcun ÜDM-ə nisbəti 30 faizə qədər artırılıb. Əvvəlki limit 20 faiz səviyyəsində idi. Bununla yanaşı, xarici dövlət borcuna dair siyasət hədəfləri qoyulub. Növbəti ildə əhəmiyyətli dərəcədə borcun qaytarılması nəzərdə tutulur. Bunun nəticəsi olaraq xarici dövlət borcumuz azalacaq. Digər ümumi siyasət istiqaməti ona yönəlib ki, daxili dövlət borcumuzun ümumi dövlət borcunda xüsusi çəkisi artsın. Nəyə görə bu edilir? Ona görə ki, xarici borclanmadan biz daha çox asılı olmayaq. Digər tərəfdən, 2015-ci illərdəki təcrübəmiz onu göstərir ki, xarici dövlət borcunun qiyməti hər hansı bir məzənnə dəyişikliyi baş verdikdə kəskin surətdə manat ifadəsi də artır. Bu baxımdan daha təhlükəsiz hesab olunur ki, biz daxili dövlət borcunu artıraq. Daxili dövlət borcunun həcminin artırılması bizim maliyyə sektorunun, bank sektorunun inkişafına da müsbət təsir göstərir"***, - deyə nazir vurğulayıb.



# "Azərbaycanın valyuta ehtiyatları 66,4 milyard manat təşkil edib"

Bu barədə Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov noyabrın 1-də keçirdiyi mətbuat konfransında bildirib.

T.Kazımov qeyd edib ki, Mərkəzi Bankın valyuta ehtiyatları on ayda 16,8 faiz artaraq 10.5 milyard manata çatıb. Taleh Kazımov onu da diqqətə çatdırıb ki, pul bazası bu ilin sonunda 20 faizdən çox artacaq. Qeyd edib ki, ilin sonunda ticarət balansının profisiti 13,9 milyard dollar, cari əməliyyatlar balansının profisiti 10 milyard dollar proqnozlaşdırılıb.

# AÇG və Şahdəniz layihələri üzrə mənfəət vergisinin məbləği açıqlandı



Hasilatın Pay Bölgüsü sazişləri çərçivəsində AÇG və Şahdəniz layihələri üzrə mənfəət vergisi ümumilikdə 1975,0 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin proqnozundan müvafiq olaraq 2027,0 milyon manat və ya 2,0 dəfə, 2022-ci ilin icrası ilə müqayisədə isə 3418,9 milyon manat və ya 2,7 dəfə azdır.

Bu barədə Maliyyə Nazirliyinin açıqladığı 2024-cü ilin dövlət büdcəsinin layihəsində bildirilib.

2023-cü ilin büdcə gəlirlərinin proqnozu ilə müqayisədə azalmaya səbəb 2024-cü ildə AÇG üzrə neft hasilatının 1,1 mln. ton (gündəlik 22,0 min barel) azalması, Şahdəniz layihəsi üzrə qazın orta qiymətinin cari il üzrə gözləniləndən 46,8 faiz (275,0 ABŞ dolları) az olmaqla hesablanması ilə bağlıdır.

# ARDNŞ-nin dövlət büdcəsinə vergi ödənişləri artacaq

ARDNŞ və onun törəmə müəssisələri tərəfindən 2408,0 milyon manat məbləğində dövlət büdcəsinə vergi ödənişləri nəzərdə tutulur ki, bu da 2023-cü ilin müvafiq göstəricisi ilə müqayisədə 208,0 milyon manat və ya 9,5 faiz, 2022-ci ilin icrası ilə müqayisədə isə 395,3 milyon manat və ya 19,6 faiz çoxdur. Bu barədə Maliyyə Nazirliyinin açıqladığı 2024-cü ilin dövlət büdcəsinin layihəsində bildirilib.

ARDNŞ üzrə proqnozlaşdırılan daxilolmaların 2000,0 milyon manatı və ya 83,1 faizi vergi orqanlarının xətti ilə daxilolmaların, 408,0 milyon manatı və ya 16,9 faizi isə dividend ödənişlərinin payına düşür.




# Təqaüdlər və ünvanlı sosial yardımlar üçün vəsaitin həcmi artırılır

Sosial müdafiə və sosial təminat xərclərindən əhalinin həssas təbəqələrinə ödənilən yaşa, əlilliyə, sağlamlıq imkanları məhdudluğa, ailə başçısının itirməyə, digər sosial müavinətlərin və müharibə əlillərinə, ümumi səbəbdən əlilliyi olan şəxslərə, müharibə veteranlarına, şəhid ailələrinə ödənilən Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin maliyyələşdirilməsinə 1738,5 milyon manat (2023-cü ilə nisbətən 301,0 milyon manat və ya 17,3 faiz çox) vəsait ayrılacaq. Bu, Maliyyə Nazirliyinin 2024-cü ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatında əksini tapıb.

Ünvanlı dövlət sosial yardımların verilməsinə 457,3 milyon manat (2023-cü ilə nisbətən 179,5 milyon manat və ya 64,6 faiz çox), "Azərbaycan Respublikası Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"-nın icrası olaraq işsiz şəxslərin məşğulluq imkanlarının artırılması məqsədilə haqqı ödənilən ictimai işləri ilə bağlı xərclər üçün 285,8 milyon manat (2023-cü il ilə müqayisədə 20,0 milyon manat və ya 7,5 faiz çox) vəsait proqnozlaşdırılıb.

# Zəngilan şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib

Baş nazir Əli Əsədov bununla bağlı Qərar imzalayıb.

Xatırladaq ki, Zəngilan şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il oktyabrın 29-da işğal olunub. Vətən müharibəsində şanlı Qələbə qazanan rəşadətli Azərbaycan Ordusu 2020-ci il oktyabrın 20-də şəhəri işğalçılardan azad edib.




# Cari ildə "Azəri-Çıraq-Günəşli" yatağından 100 milyon barel neft çıxarılıb

Cari ilin üçüncü rübü ərzində "Azəri-Çıraq-Günəşli"dən (AÇG) stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib.

AZƏRTAC xəbər verir ki, ilk üç rüb üçün AÇG-dən ümumi hasilat – "Çıraq" (23 000), "Mərkəzi Azəri" (96 000), "Qərbi Azəri" (89 000), "Şərqi Azəri" (59 000), "Dərinsulu Günəşli" (67 000) və "Qərbi Çıraq" (34 000) platformaları ilə birlikdə – gündə orta hesabla 368 min barel və ya ümumilikdə təxminən 100 milyon barel, yəni 14 milyon ton olub.

Üçüncü rübün sonunda AÇG-də ümumilikdə 136 neft hasilat quyusu, 45 su injektor quyusu və 8 qaz injektor quyusu istismarda olub. Həmçinin ilin üç rübü ərzində AÇG-də 6 neft hasilatı, 5 su injektoru və 1 qaz injektoru quyusu tamamlanıb.

Qeyd olunan dövrdə AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 5,5 milyon kubmetr, ümumilikdə isə 1,5 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

# Türkiyə Cümhuriyyəti -100







## “Tarixən olduğu kimi, Azərbaycan və Türkiyə xalqları bu gün də bir-birinin yanındadır”



“Tarixən olduğu kimi, xalqlarımız bu gün də bir-birinin yanındadır, sevincini də, kədərini də birgə yaşayırlar. Azərbaycan xalqı Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Siz (Rəcəb Tayyib Ərdoğan – red.) başda olmaqla, qardaş Türkiyə dövləti və xalqının Azərbaycanın haqq işinə, ərazi bütövlüyünə göstərdiyi birmənalı siyasi dəstəyini və qətiyyətli mövqeyini heç zaman unutmayacaq”.

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanlandığı təbrik məktubunda yer alıb.

***“Biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir”***, - deyə dövlətimizin başçısı qeyd edib.

Bizim gələcəyimizin aydınlığı siyasi professionallıq və milli siyasət sahəsində göstərə biləcəyimiz qabiliyyətdən asılıdır. Dünyanın bugünkü tələbləri və əsrlər boyu beyinlərdə və xarakterlərdə yığılmış həqiqətlər qarşısında xəyalpərvər olmaq kimi ciddi xəta ola bilməz. Tarixin tələbi budur, elmin, ağlın, məntiqin tələbi belədir.

Millətimizin gücü, xoşbəxt və rahat yaşaya bilməsi üçün millətin tam milli siyasət yeritməsi və bu siyasətin daxili quruluşumuza uyğun olması vacibdir. Milli siyasət dediyim zaman biz bunu nəzərdə tuturuq: milli sərhədlərimiz daxilində birinci növbədə öz qüvvələrimizə əsaslanaraq, varlığımızı qorumaq, millət və məmləkətin gerçək xoşbəxtliyinə və çiçəklənməsinə çalışmaq… Ümumiyyətlə, həyata keçməsi qeyri-mümkün olan xəyali əməllərə milləti zorlamamaq və zərərə sürükləməmək… Sivilizasiya dünyasından mədəni və insani davranış, qarşılıqlı dostluq gözləməkdir.

**Mustafa Kamal Atatürk**

**“Yurdda sülh, cahanda sülh üçün çalışırıq”.**

**Mustafa Kamal Atatürk**

## İstiqlalına şəhidlərinin canı və qanı bahasına qovuşan Türkiyə yüz il sonra dünyada əsas söz sahiblərindən biri olan qüdrətli dövlətdir

“İstiqlalına şəhidlərinin canı və qanı bahasına, çox mürəkkəb və ziddiyyətli beynəlxalq vəziyyətdə qovuşan Türkiyə Respublikası yüz il sonra qlobal siyasi xəritədə mühüm mövqeyə malik, dünyada əsas söz sahiblərindən biri olan, hər cəhətdən güclü və qüdrətli dövlətdir”.

Bu sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanlandığı təbrik məktubunda yer alıb.

Dövlətimizin başçısı məktubunda, həmçinin qeyd edib: ***“Atatürkün əmanəti olan qardaş Türkiyənin son iyirmi ildə inkişaf tempi, dünya çapında ən öndə duran ordudan tutmuş yüksək texnologiya və innovasiyalara qədər bütün sahələrdə əldə etdiyi möhtəşəm nailiyyətləri, beynəlxalq aləmdə qazandığı etibarı və yüksək nüfuzu Sizin sarsılmaz iradənizin, yorulmaz fəaliyyətinizin və qətiyyətlə həyata keçirdiyiniz müdrik siyasətinizin nəticəsidir. Sizin əzmlə yürütdüyünüz strateji inkişaf xəttinə xalqınızın birmənalı dəstəyi, Sizə olan sonsuz inam və etimadı Türkiyənin gələcək uğurlarını və nailiyyətlərini təmin edəcək ən mühüm amillərdir”.***

Gündən-günə güclənən, ən qabaqcıl dövlətlərlə bir sırada layiqli yerini tutan müasir Türkiyəni görməkdən qardaş ölkə olaraq böyük qürur və fərəh hissi duyduğumuzu vurğulayan Azərbaycan Prezidenti bildirib: ***“Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamı xalqlarımızın qardaşlığını, birliyini, həmrəyliyini ifadə etməklə yanaşı, ikitərəfli münasibətlərimizin əsl mahiyyətini əks etdirir. Fəxrlə qeyd etmək istəyirəm ki, bu fəlsəfənin sübutu olaraq hazırda Azərbaycan və Türkiyə dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr və müttəfiqlərdir”.***



# Türkiyə Cümhuriyyəti -100





## Qardaş ölkənin 100-cü il paradı

Cümhuriyyətin 100-cü ildönümü münasibətilə Türkiyə Hərbi Dəniz Qüvvələri (HDQ) ölkə tarixinin ən böyük paradını keçirib.

"Yüzüncü ildə yüz gəmi" şüarı altında keçirilən paradı Türkiyə Respublikasının HDQ komandanı donanma admiralı Ercüment Tatlıoğlu ölkənin ən böyük "TCG Anadolu" amfibiya gəmisindən idarə edib.

Parad əsnasında Türkiyənin Hərbi Hava Qüvvələrinə aid təyyarələr İstanbul boğazı üzərində uçuşlar həyata keçirib.

Nümayişdə "Solo Türk" və "Türk ulduzları" qrupuna daxil olan aviasiya vasitələri, eləcə də "F-16" və "F-4E" qırıcıları daxil olmaqla 20 təyyarə iştirak edib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla, dövlət və hökumət rəsmiləri nümayişləri izləyiblər.



## Türkiyə bu gün yeni əsrinə böyük qürurla qədəm qoyur

Bundan tam 100 il əvvəl, oktyabrın 28-də türk xalqının ulu öndəri Qazi Mustafa Kamal Atatürk ölkə rəsmilərini Çankaya köşkündə axşam yeməyinə toplayaraq məşhur, "Əfəndilər, sabah cümhuriyyəti elan edəcəyik" sözlərini işlədir. Təqvim cümə günü, 1923-cü il 29 oktyabr tarixini göstərdikdə isə insanlarla dolu parlament binasına daxil olan Atatürk bir neçə görüş keçirdikdən sonra məclis kürsüsünə çıxaraq "Suverenlik qeyd-şərtsiz millətə məxsusdur" sözləri ilə Türkiyə Cümhuriyyətini elan edir.

Binaya toplaşanlar bu ifadəni "Yaşasın Cümhuriyyət" şüarı və alqışlarla qarşılayırlar.

Bunun ardından, "Türkiyə dövlətinin idarəetmə şəkli respublikadır" başlıqlı qanun layihəsi və Qazi Mustafa Kamal Paşanın yeni Türkiyə dövlətinin ilk prezidenti seçilməsi təklifi Türkiyə Böyük Millət Məclisinə təqdim edilir və 158 parlament üzvünün səs birliyi ilə qəbul olunur.

Tarixə nəzər salsaq görərik ki, Türkiyə Cümhuriyyəti qurulduqda ölkədə vəziyyət olduqca acınacaqlı idi. Lakin ölkənin gələcəyinə inanan türk xalqı Mustafa Kamal Atatürk öndərliyində böyük inkişaf yoluna qədəm qoyur.

Yarandığı gündən ədaləti, demokratiyanı, insan hüquqlarını və bərabərliyi özünə rəhbər tutan Türkiyə dövləti təhsil, nəqliyyat, idman, infrastruktur, mədəniyyət kimi müasir dünyanın ehtiyaclarına cavab verən bütün sahələri sürətli inkişaf etdirməyə çalışır.

Qazi Mustafa Kamal Atatürkün başlatdığı bu inkişaf yolu sonralar xüsusilə bir neçə lider tərəfindən uğurla davam etdirilir.

Ölkədə böyüməni sürətləndirmək və sənayeləşməni təşviq etmək üçün iqtisadi siyasətdə dəyişikliklər edilir. Sənaye istehsalı və ixracatın əhəmiyyəti artır. Bir sıra iqtisadi islahatlar və modernləşmə təşəbbüsləri həyata keçirilir. Kənd təsərrüfatı strukturunun dəyişdirilməsi, infrastrukturun inkişafı, yeni sənaye sahələrinin yaradılması kimi məsələlər ön plana çıxır.

Bütün bunlarla yanaşı, ötən yüz ildə ölkə hərbi çevrilişlər, terror, iqtisadi böhranlar, xarici borclar, təbii fəlakətlər kimi bir çox imtahanlardan keçir. Böyük mübarizələrlə ötən bu bir əsrin tamamında, bu gün Türkiyə dünyanın ən qabaqcıl ölkələrindən birinə çevrilib.

Yaxın keçmişə baxdığımızda, Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyində keçən son iyirmi ilin Türkiyənin ən əhəmiyyətli inkişaf mərhələlərindən biri olduğunu görürük. Ötən bu dövrdə sənaye, səhiyyə, mədəniyyət, nəqliyyat, rabitə, infrastruktur, turizm, idman və bu kimi bir çox sahələr üzrə ilklərə, nəhəng layihələrə imzalar atılıb.

Türkiyənin son illərdə əsas inkişaf istiqamətlərindən biri müdafiə və aviasiya sahəsidir. Son iyirmi ildə ölkənin müdafiə sənayesində yerli və milli texnologiya nisbəti 20 faizdən 80 faizədək yüksəlib. Türkiyə bütün dünyanı heyrətə salan bu sahə üzrə texnoloji istehsala davam edir. Bu gün İHA, SİHA, "Atak" helikopteri, "Hürjet", "Kaan" milli döyüş təyyarəsi, "TCG Anadolu" amfibiya gəmisi kimi bir çox texnika ölkənin bu sahə üzrə fəxr etdiyi işlərdən yalnız bir neçəsidir.

Bütün bunlara baxdıqda, hər sahə üzrə inkişafını tam sürətlə davam etdirən və iri addımlarla yeni hədəflərə doğru irəliləyən qardaş ölkə Türkiyə bu gün yeni əsrinə böyük qürurla qədəm qoyur.

## Bakıda Türkiyənin milli bayramı münasibətilə rəsmi qəbul təşkil edilib



Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə oktyabrın 29-da Bakıda, Heydər Əliyev Mərkəzində rəsmi qəbul təşkil edilib.

Rəsmi qəbulda Milli Məclisin sədri Sahibə Qafarova, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Milli Məclis sədrinin müavinləri və parlamentin deputatları, dövlət və hökumət nümayəndələri, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəsinin milli bayramı münasibətilə tədbir iştirakçılarına videomüraciəti dinlənilib.

Türkiyə Cümhuriyyətinin 100 ilik yubileyi münasibətilə təbriklərini çatdıran səfir Cahit Bağçı bildirib ki, məzlumların, haqqı tapdalananların yanında olan Türkiyə ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib.

Ölkəsinin inkişaf yolundan danışan diplomat Türkiyənin dünyada söz sahibi və ən güclü ordularından birinə malik olduğunu bildirib. O, ölkəsinin bundan sonra daha da güclənəcəyini vurğulayıb.

Səfir bildirib ki, Türkiyə 44 günlük Vətən müharibəsində olduğu kimi, azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərində, infrastrukturun qurulmasında da qardaş Azərbaycanın yanındadır.

O qeyd edib: *"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, Azərbaycanın gələcəyi gələcəyimiz, sevinci sevincimiz, taleyi taleyimiz, kədəri kədərimizdir"*.

Ölkələrimiz arasında ticari dövriyyəsinin 5 milyard dollardan çox olduğunu diqqətə çatdıran Cahit Bağçı əminliklə vurğulayıb ki, Türkiyənin yeni 100 ili sülh, sabitlik, inkişaf, həmrəylik əsri olacaq.

## "Türkiyə sülh təşəbbüslərinin irəli aparılmasında söz sahibidir"



"Siyasətini dünyəvilik, demokratiya və millətçilik kimi təməl prinsiplər əsasında quran Türkiyə son iyirmi ildə böyük siyasi və dövlət xadimi, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə möhtəşəm uğurlara imza atıb".

Bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının yaranmasının 100 illiyi münasibətilə keçirilən tədbirdə səsləndirib.

Milli Məclisin sədri bildirib ki, Türkiyənin Birləşmiş Millətlər Təşkilatı, NATO, *"Böyük iyirmilik", İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlarda yaxından iştirakı onu sülh və sabitlik uğrunda çıxış edən qlobal oyunçuya çevirib. "Haqq-ədalət və dürüstlük meyarları üzərində qurulan Türkiyə diplomatiyası ixtilafların yoluna qoyulmasında, dialoqun inkişafında və sülh təşəbbüslərinin irəli aparılmasında söz sahibidir"*, - deyə Sahibə Qafarova vurğulayıb.

Bu gün Türkiyə Ordusu, hərbi hava və hərbi dəniz qüvvələrinin dünyanın ən güclü silahlı qüvvələri sırasında olduğunu diqqətə çatdıran Milli Məclisin sədri "Türkiyə yüz ili" konsepsiyasının yeni əsrdə Türkiyəyə daha böyük nailiyyətlər qazandıracağından əminliyini ifadə edib.

## Türkiyə Respublikasının 100 illiyi münasibətilə "Türk şəhidliyi" abidəsi və Şəhidlər Xiyabanı ziyarət olunub

Türkiyədə Respublikanın yaranmasının 100 illiyi münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyinin əməkdaşları, Türkiyə Silahlı Qüvvələrinin ölkəmizdəki hərbi attaşeliyi, türkiyəli iş adamları oktyabrın 29-da Azərbaycanın azadlığı uğrunda canlarını fəda etmiş türk əsgərlərinin adları və soyadları həkk olunmuş "Türk şəhidliyi" abidəsini ziyarət edib, önünə əklil qoyublar.

Şəhidliyin xatirə dəftərini imzalayan Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı bildirib ki, Türkiyə xalqı bu qələbəni əzmkarlıq və dəyanətlə qazanıb. Səfir əlavə edib ki, bir əsr bundan əvvəl Türk dünyasının böyük oğlu, mahir sərkərdə və dahi lider Qazi Mustafa Kamal Atatürk



Türkiyə xalqını vahid bir ideal ətrafında birləşdirməyə müvəffəq olub, özünün ən möhtəşəm əsəri olan Türkiyə Respublikasını qurmaqla istiqlal mübarizəsini uğurla sona çatdırıb. Cahit Bağçı bu böyük qələbənin türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsi olduğunu vurğulayıb.

*"Bu gün Türkiyə məzlumların tək ümididir. Ölkə müdafiə sənayesindəki millilik dərəcəsini 80 faizədək yüksəldib. Türkiyə bu gün peykini, İHA-sını, SİHA-sını, tankını, topunu, savaş gəmisini, savaş təyyarəsini, helikopterini və elektrikli avtomobilini istehsal edən bir sənaye ölkəsinə çevrilib. Aktiv regional və beynəlxalq siyasətimizlə dünyada sülh, hüzur və barış üçün çalışırıq"*, - deyə diplomat vurğulayıb.

O, əlavə edib ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı münasibətlər müttəfiqlik səviyyəsinə yüksəlib.

## "Türkiyə-Azərbaycan bir yerdə addımlayaraq qarşıdakı yeni hədəflərə doğru irəliləyir"

"Məzlumların, haqqı tapdalananların yanında olan Türkiyə ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib".

Bunu Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ölkəsinin milli bayramı münasibətilə keçirilən rəsmi qəbulda deyib.

Ölkəsinin inkişaf yolundan danışan diplomat Türkiyənin dünyanın ən güclü ordularından birinə sahib olduğunu və daha da möhkəmləndiyini deyib. Türkiyə-Azərbaycan dostluğundan və qardaşlığından danışan diplomat bir yerdə addımlayan ölkələrimizin qarşıdakı yeni hədəflərə doğru inamla irəlilədiklərini qeyd edib.

Ölkələrimiz arasında ticari dövriyyəsinin 5 milyard dollardan çox olduğunu diqqətə çatdıran Cahit Bağçı bildirib ki, Türkiyənin yeni 100 ili sülh, sabitlik, inkişaf, həmrəylik ili olacağaq.



# Форум развития образования прошел в Баку




В Баку 1 ноября начал свою работу Форум развития образования, посвященный 100-летию общенационального лидера Гейдара Алиева.
Форум организован Министерством науки и образования и Фондом развития образования.
Основными целями форума, девиз которого «Образование для прогресса», являются установление деловых связей с участниками, планирование совместных проектов, создание инновационной экосистемы, обсуждение таких тем, как государственно-частное партнерство, интеграция образования и экономики, а также ответы на вопросы участников от местных и международных экспертов.
Выступивший со вступительной речью министр науки и образования Эмин Амруллаев рассказал о достижениях системы образования за последние годы. Министр заявил, что инновации невозможны без образования, и что достижения системы образования стимулируют развитие инноваций в долгосрочной перспективе.

# Ректор предложил создать филиал UNEC в Карабахе

Под руководством президента Ильхама Алиева была достигнута великая победа не только в истории Азербайджана, но и в истории всего тюркского мира, заявил ректор Азербайджанского государственного экономического университета Адалат Мурадов.
«Карабах, неотъемлемая часть Азербайджана, был освобожден от 30-летней армянской оккупации. Мы, являясь UNEC, предлагаем открыть филиал университета в Карабахе, чтобы способствовать превращению освобожденных от оккупации территорий в рай и восстановлению Карабаха.
В настоящее время филиалы UNEC действуют в Загатале, а также в Дербенте, Российской Федерации. Мы имеем богатый опыт и успешную модель образования в создании и управлении филиалами. Учитывая этот опыт, UNEC готов принять необходимые меры для создания филиала в Карабахе», - сказал Мурадов.



# AZPROMO и Международная палата Дубая обсудили возможности расширения сотрудничества



Обсуждены возможности расширения сотрудничества между Агентством поощрения экспорта и инвестиций Азербайджана (AZPROMO) и Международной палатой Дубая.
Как сообщили Trend в AZPROMO, на встрече стороны обменялись мнениями о возможностях совместного сотрудничества. Было отмечено, что имеются широкие перспективы для интенсификации партнерства и изучения новых бизнес-возможностей в торговом, инвестиционном, транспортно-логистическом секторах.
Было отмечено, что азербайджанские компании в следующем году планируют принять участие в экспортной миссии в Объединенные Арабские Эмираты (ОАЭ) и на международной продовольственной выставке "Gulfood 2024" в городе Дубай со стендом единой страны, а делегация компаний из ОАЭ совершит деловой визит в Азербайджан в 2024 году.
На встрече была достигнута договоренность о совместной работе с дубайскими компаниями по инвестированию инвестиций в Азербайджан из третьих стран.

# Глава Минтруда о проделанной работе и планах на будущее



В Азербайджане и дальше будут расширяться широкомасштабные меры социальной поддержки семей шехидов и инвалидов войны. Об этом на состоявшемся в министерстве заседании коллегии заявил министр труда и социальной защиты населения Сахиль Бабаев. Было отмечено, что после 44-дневной войны 103 тысячам членов семей шехидов и ветеранов войны назначено 115 тысяч социальных выплат. За этот период трудоустроено 20 тысяч человек. Кроме того, расширена программа жилищного обеспечения, семьям шехидов и инвалидам войны передано более 5 300 квартир и частных домов. Лицам с ограниченными возможностями передано 324 автомобиля. В рамках программы социальной поддержки 439 инвалидам войны предоставлено 458 единиц высокотехнологичных протезов, 2 тысячам инвалидов войны передано 44,6 тысячи реабилитационных средств.
Сахиль Бабаев, обративший внимание на масштабные инфраструктурные проекты, реализуемые на освобожденных от оккупации территориях, подчеркнул, что в недавно начавшем работу карабахском региональном центре DOST более 900 тысяч человек в 9 административных районах будут охвачены услугами в сферах занятости, труда, инвалидности и социальной защиты по принципу «единое окно».Доведено до сведения, что около 70 процентов переселенных в эти районы трудоспособных жителей уже трудоустроены, отмечено, что эти меры будут и дальше расширяться.

# ЦБ Азербайджана о причинах установления лимита в отношении продажи долларов

Лимит, установленный азербайджанскими банками в отношении продажи долларов США, предназначен для предотвращения отмывания денег.
Как сообщает Trend, об этом сказал председатель правления Центрального банка Азербайджана (ЦБА) Талех Казымов в ходе пресс-конференции, посвященной изменениям параметров учетной ставки.
«В настоящее время покупка иностранной валюты в банках превзошла продажи. Превышение спроса на иностранную валюту в этом году связано с повышением доверия к азербайджанскому манату, профицитом баланса текущих операций. Мы не согласны с утверждениями о том, что порядок покупки иностранной валюты в эквиваленте до 20 тысяч манатов, введенный банками в рамках борьбы с отмыванием денег, снижает спрос на иностранную валюту. Любой гражданин может приобрести иностранную валюту на сумму, эквивалентную 20 тысячам манатов, с указанием источника средств. Цифры не подтверждают, что правила банков по покупке валюты ограничивают покупку долларов населением», - отметил он.




# Глава МИД Белоруссии назвал причину нынешних проблем с безопасностью в мире

МИНСК, 26 октября. /ТАСС/. На международной конференции по евразийской безопасности в Минске выступил глава МИД Сергей Алейник.
По словам Сергея Алейника, она кроется в натоцентричности Запада
Проблемы с безопасностью в мире кроются в продвигаемой Западом натоцентричной модели безопасности для избранных. Об этом на открывшейся в Минске международной конференции высокого уровня «Евразийская безопасность: реальность и перспективы в трансформирующемся мире» заявил министр иностранных дел Белоруссии Сергей Алейник.
«Причина нынешней ситуации [с безопасностью] - в той натоцентричной модели безопасности для избранных, которую продвигал и продолжает продвигать Запад», - сказал он.
Алейник отметил, что именно Запад «не позволил ОБСЕ стать структурой, которая могла бы содействовать построению общего пространства безопасности от Ванкувера до Владивостока». «Запад так и не дал ей стать полноценной международной организацией. А сейчас вместо платформы для серьезного обсуждения вопросов войны и мира, ее попросту просто превращают в макет порядка, основанного на правилах [Запада]», - сказал Алейник.
«Западноцентричность уходит в прошлое. Это место занимает многополярность, полицентричность.
Большинство стран мира выступает за многообразие путей развития и хотят, чтобы их выбор уважали, а не насаждали им чуждые принципы. И в этом процессе ключевое место занимает Евразия», - указал глава МИД Белоруссии.

# ŞANLI ZƏFƏR GÜNÜ



Tələbələrin elmi rəhbərləri Maliyyə və mühasibat fakültəsinin dekanı, dos. Hafiz Hacıyev

8 noyabr 2020-ci il doğma Qarabağımızın Azərbaycana qovuşduğu gündür. Zəfər Günü münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri də öz ürək sözlərini oxucularla bölüşüb.
Tələbələr eşidəndə ki, fakültəmizdə "Zəfər günü"nə həsr edilmiş tədbir olacaq və məqalə işləyə bilmək imkanları var, həqiqətən də, düşüncələrimiz bizi yanıltmadı. Onları dinləmək, məqaləni oxumaq bir insan və bir müəllim kimi nə qədər xoş idi. Tələbələrimiz kiçik ürəklərində nə qədər arzular, düşüncələr, fikirlər daşıyırlarmış.

Biz də öz növbəmizdə "Zəfər günü"nü bizə yaşadan cənab Prezidentimiz İlham Əliyevə minnətdarlığımızı bildirir, qələbəni bizə bəxş edən, hər zaman dərin hörmət və ehtiramla yad edəcəyimiz şəhidlərimizə, bu yolda canlarını fəda etmiş qazilərimizə, sərhəddə, ön cəbhədə dayanan əsgərlərimizə minnətdarlığımızı bildiririk.
Əlbəttə ki, bu şəraiti hər zaman bizə yaradan, qəzetində yer ayıran, mövzularımızı işıqlandıran "İqtisadiyyat" qəzetinin rəhbərliyinə, bütün əməkdaşlarına, bizə köməklik göstərən redaksiya heyətinə minnətdarıq.



"Maliyyə və audit" kafedrasının dos. Flora Kaşiyeva

## II Qarabağ müharibəsində Azərbaycan xalqının əldə etdiyi şanlı qələbə

Birinci Qarabağ müharibəsi öz haqsızlığı, ədalətsizliyi, qeyri-bərabər canlı qüvvə və silahları, saysız əsir düşən və dünyasını dəyişən şəhidlərimizlə yaddaşımıza və tariximizə qanlı mürəkkəblə həkk olundu. Minlərlə azərbaycanlı öz doğma torpaqlarından didərgin düşdü. Artıq bütün Azərbaycan xalqının bir məqsədi və arzusu var idi, torpaqların azad olunması.
Nə az, nə çox olan 28 illik əsarətin ardından 2020-ci il 27 sentyabr tarixində başlayan İkinci Qarabağ müharibəsi ilə xalqımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında yüksək şəkildə ixtisaslaşmış və silahla təmin olunmuş milli ordumuzun, 3000 və daha artıq şəhidimizin, qazi və döyüşçülərimizin sayəsində öz istəyinə qovuşdu. Əzəli düşmənlərimiz ordumuz, dövlətimiz tərəfindən məğlub edildi, çoxlu sayda hərbi qənimətlər ələ keçirildi. 44 günlük Vətən mübarizəsindən sonra 8 noyabr tarixində ordumuz öz qələbəsi ilə hər bir azərbaycanlının ürəyində alovlanan yurd, vətən həsrətinə son qoydu. Xalqımız tarixi torpaqlarına qovuşdu. Bizim dövlət bayrağımız Şuşada, Zəngilanda, Qubadlıda dalğalandı.
8 noyabr tarixi bütün dünya azərbaycanlılarının unudulmaz gününə çevrildi - Zəfər Günü! Nəinki Azərbaycan, bütün dünya bizim şanlı qələbəmizin şahidi oldu. Ordumuz öz yenilməzliyini, dövlətimiz öz müstəqilliyini bir daha bütün dünyaya nümayiş etdirmiş oldu.
**Yaşasın müstəqil Azərbaycan!**



*Maliyyə və mühasibat fakültəsinin 664-cü qrup tələbəsi Nərgiz Mehdiyeva*

## Uğrunda ölən varsa, Vətəndir!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu hərbi-siyasi strategiyası sayəsində Azərbaycan ordusu işğal altında olan torpaqlarını azad etmişdir.
Uzun illər Dağlıq Qarabağ barəsində davam edən çoxsaylı hərbi, siyasi danışıqlar öz haqlı nəticəsini vermədiyindən Azərbaycan ordusu Ali Baş Komandanın əmri ilə 2020-ci il sentyabr ayının 27-də Qarabağda əks-hücuma başladı. Tarixə "44 günlük müharibə" adı ilə keçmiş II Qarabağ müharibəsi 8 noyabradək davam etdi, I Qarabağ müharibəsindən fərqli olaraq II Qarabağ müharibəsində güclü texniki qüvvəyə malik Azərbaycan ordusu qələbə çaldı.
Və yaxın ərəfədə eyni hisləri yenidən yaşadıq. 23 sentyabr 2023-cü ildə Azərbaycan ordusu lokal xarakterli anti-terror əməliyyatına başladı və 23 saat davam edən qızğın döyüşdən ordumuz yenə qalib tərəf kimi çıxdı. Baş verən bu əməliyyat nəticəsində Azərbaycan ordusu Xankəndiyə, Ağdərəyə, Xocavəndə, Xocalıya və Əsgərana üçrəngli bayrağımızı sancdı. Nəticədə, Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan öz suverenliyini bərpa etdi. Baş verən bütün bu hadisələr nəticəsində Azərbaycan bütün dünyaya öz güclü mövqeyini nümayiş etdirdi.
Qalib ölkənin bundan qürur hissi duyan vətəndaşı olaraq, torpaq uğrunda vuruşan qazilərimizə Allahdan şəfa və möhkəm can sağlığı, canından keçən bütün şəhidlərimizə rəhmət, yaxınlarına səbir diləyirəm. Hər birinin əziz xatirəsi bizim üçün dəyərli və unudulmazdır! Ruhları şad olsun!

*Vətən bağı al-əlvandır,*
*Var içində Xarı Bülbül!*



*Leyla Məmmədli, Maliyyə və mühasibat fakültəsinin 664-cü qrup tələbəsi*




## BİZ GƏLƏCƏYƏ NİKBİNLİKLƏ BAXIRIQ.

Biz istədiyimizə həmişə nail oluruq. İstədiyimiz isə bölgədə sülhün, əmin-amanlığın olması, müharibənin olmaması, Azərbaycanın uğurla inkişaf etməsi və xalqımızın firavanlığıdır.

**İlham ƏLİYEV**




## ƏLDƏ ETDİYİMİZ HƏR BİR QƏLƏBƏNİ ŞƏHİDLƏRİMİZƏ BORCLUYUQ!

***Şəhidlik zirvəsinə ucalmaq çox müqəddəsdir. Şəhid olmaq sadəcə ölmək demək deyildir, şəhid olmaq öz vətənin üçün canını fəda etmək, özünü qurban vermək, ömrünü vətənə həsr etmək deməkdir. Onlar hər zaman qəlbimizdə yaşayırlar.***
***Mənim təhsil aldığım universitetdən də bu zirvəyə yüksələn igid oğullar olmuşdur və onlar təkcə universitetin deyil, hamının fəxridirlər. Gəlin, onlardan bir neçəsini yada salaq.***

**Mixail Həmidov (1983-2020)**



Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olan leytenant M.Həmidov kəşfiyyatçı kimi 4 il Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. 2013-2015-ci illərdə ADİU-da MBA proqramı üzrə "Biznesin idarə edilməsi" ixtisası üzrə magistr təhsili alıb.
Silah yoldaşları tərəfindən "Mixaylo" ləqəbini qazanan Mixail Həmidov Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub.
Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Fərhad Fərhadlı (1993-2020)**



Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Menecment" ixtisası üzrə bakalavr təhsili alıb. 2017-2018-ci illərdə UNEC-də "Biznesin idarə olunması" ixtisası üzrə magistr təhsili alıb.
Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Bəhruz Məmmədov (1991-2020)**



2009-cu ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra, 571 bal toplayaraq, ADİU-nun Əmtəəşünaslıq fakültəsinə qəbul olunub. 2013-cü ildə təhsilini magistraturada davam etdirib.
Füzuli, Xocavənd, Hadrut və Qubadlıda gedən döyüşlərdə iştirak edib. Şuşa uğrunda gedən döyüşlər zamanı Daşaltı kəndində şəhid olub.
Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

**Eldar Əliyev (1994-2020)**



2011-ci ildə ADİU-nun Türk dünyası işlətmə fakültəsinə daxil olub. 2015-ci ildə məzun olduqdan sonra Naxçıvanda "N" saylı hərbi hissədə motoatıcı pulemyot atıcı olaraq xidmət edib. Füzuli, Hadrut və Cəbrayılın işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 13-də Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.
Ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

*Gözəl Salmanova, Maliyyə və mühasibat fakültəsinin 602-ci qrup tələbəsi*



## Şəhid məzunumuz Mürsəl Kazımlı

23 iyul 1992-ci ildə Bakı şəhərində anadan olub. Pərviz İsmayılov adına 278 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra 2010-cu ildə 613 balla UNEC-in Mühasibat uçotu və audit fakültəsinə daxil olub. 2014-ci ildə universiteti zərbəçi kimi bitirib. Məzun olduqdan sonra həqiqi hərbi xidmətdə olub.
Hərbi xidmətini Gəncə, Naftalan və Tərtər artilleriya korpusunda rabitəçi kimi başa vurub. Əmək fəaliyyətinə 2016-cı ildə 2 saylı



Tibb kollecində mühasib kimi başlayıb.
İkinci Qarabağ müharibəsi zamanı Mürsəl Kazımlı Füzulinin azad edilməsində savaşıb. Oktyabrın 23-də Füzuli rayonunun Kürdlər kəndində qəhrəmancasına şəhid olub.
Mürsəl Kazımlı ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və 3-cü Dərəcəli Vətənə Xidmətə görə Ordeni ilə təltif edilmişdir.

*Ruhu şad olsun!*

## Müharibənin ikinci gününün şəhidi - Tural Məmmədov

Mən, Yasəmən Musayeva da UNEC-in məzunuyam. Həyat yoldaşım Tural haqqındadır bu yazım. İstəyirəm, onu da bu gözəl gündə - Zəfər günündə anaq. Məmmədov Tural Elxan oğlu 17 sentyabr 1990-cı ildə Qazax rayonunun Qızıl Hacılı kəndində anadan olub. 2 yaşı olanda doğulduğu kənd erməni silahlı birləşmələri tərəfindən hücuma məruz qalır və kənd işğal olunur. Həqiqi hərbi xidmətini döyüş bölgəsində yerləşən hərbi hissədə baş tuşlayıcı və snayper vəzifələrində keçirib. 2015-ci ildə biz ailə həyatı qurduq, 2 əkiz övladımız dünyaya gəldi. Tural Kəlbəcərin azadlığı uğrunda döyüşlərdə qəhrəmancasına, geri çəkilmədən son damla qanınadək vuruşdu. 28.09.2020-ci ildə düşmən tərəfindən snayperlə vuruldu.

Nümunəvi xidmətlərinə və döyüş tapşırıqlarını layiqincə yerinə yetirdiyinə görə Tural Məmmədov ölümündən sonra "Vətən Uğrunda", "Kəlbəcərin azadlığı uğrunda" və "II Qarabağ müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşdur.

*Allah rəhmət eləsin!*



## Şəhidlərimizi heç vaxt unutmayacağıq!

8 noyabr tarixli möhtəşəm qələbəmizdən bir qədər əvvəl - 2020-ci ilin iyul ayında Ermənistan ordusu təxribatlara əl atdı və Tovuz rayonu istiqamətində atəşkəsi pozdu. Azərbaycan ordusunun qəhrəmanlıq salnaməsinə növbətisi - Tovuz döyüşləri də qızıl hərflərlə yazıldı. Ordumuzun bu qələbəsindən artıq üç il ötür. Xalq bu döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan qəhrəman, vətənpərvər oğullarını - general-mayor Polad Həşimovu, polkovnik İlqar Mirzəyevi, mayor Namiq Əhmədovu, mayor Anar Novruzovu, baş leytenant Rəşad Mahmudovu, gizir İlqar Zeynalovu, gizir Yaşar Babayevi, baş çavuş Vüqar Sadıqovu, çavuş Elçin Mustafazadəni, çavuş Nazim İsmayılovu, baş əsgər Elşad Məmmədovu və əsgər Xəyyam Daşdəmirovu böyük izdihamla son mənzilə yola saldı.

Sentyabrın 27-dən başlayaraq Azərbaycan ordusunun həyata keçirdiyi əks hücum əməliyyatları zamanı doğma torpaq, Vətən uğrunda canını fəda edərək, şəhidlik zirvəsinə yüksələnlər həm də öz adını xalqın tarixi yaddaşına həkk etdilər. Qəhrəman şəhidlərimizin arasında mənim də 2 qohumum var. Birinci Qarabağ müharibəsində polis birləşmələrinin tərkibində könüllü olaraq müharibədə iştirak edən və qəhrəmancasına şəhid olan **Sərkər Həsən oğlu Quliyev** mənim əmimdir, Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olmuş **Quliyev Ruslan Şaxsəddin oğlu** isə digər əmimin oğludur. *Qürurla daşıdığım Sərkər adını da mənə əmim Sərkər Quliyevin şərəfinə qoyublar.* ***Allah bütün şəhidlərimizə rəhmət etsin.***



**Quliyev Sərkər,**
**Maliyyə və mühasibat fakültəsinin 664-cü qrup tələbəsi**

## ÜRƏKLƏRDƏ YAŞAYAN QƏHRƏMAN

Vətənimizin qəhrəman oğullarından biri də şəhid Əliyev Kərim Məhəmmədəli oğludur. O, 31 avqust 1998-ci ildə Ucar rayonunun Alpout kəndində anadan olub. 2004-2015-ci illərdə Alpout kənd tam orta məktəbində təhsil alıb. Atası Məhəmmədəli dayının I Qarabağ müharibəsində iştirak etməsi Kərimin və onun qardaşı Rüstəmin vətənpərvər ruhda böyüməsinə çox təsir göstərmişdir. Qəlbində olan vətən eşqi, vətən sevgisi Kərimi hər zaman işğal olunmuş torpaqlarımızın azadlığı haqqında düşünməyə vadar edib və bu hədəfi uğrunda ona inamla addımlamağa güc verib.

Kiçik gizir rütbəsində olan Kərim 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlayan II Qarabağ müharibəsi zamanı gedən döyüşlərdə iştirak edib. Cəbrayılın, Füzulinin azad olunması uğrunda gedən döyüşlərdə savaşıb. Oktyabrın 19-da Qubadlının azad edilməsi zamanı "əfsanəvi taborun əfsanəvi qəhrəmanı" əsir düşməmək üçün 10 erməni əsgəri ilə birgə özünü partladıb, şəhidlik zirvəsinə ucalmışdır.



**Qədirov Şəhriyar,**
**Maliyyə və Mühasibat fakültəsinin 600-cü qrup tələbəsi**

## "Zəfər Günü"

Azərbaycan xalqının 30 ildən bəri intizarla gözlədiyi o xoş xəbəri, nəhayət ki, eşitmək bizə nəsib oldu. Uzun illərdən bəri Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən aparılan məqsədyönlü işlər, yürüdülən uzaqgörən siyasət, xüsusilə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verdi.

Ordumuz Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşaya çatdı. Şuşa unikal Azərbaycan musiqisinin beşiyi, şeir-sənət ocağı, açıq səma altında muzey, canlı tarixdir. O gün - 8 noyabrda 28 illik həsrətə son qoyuldu. Azərbaycan bayrağı Şuşada dalğalandı. Bu xəbəri Azərbaycan Prezidenti İlham Əliyev Şəhidlər Xiyabanından canlı yayımla paylaşdı. Bu qüruru yaşamağımızın səbəbkarları isə Azərbaycanın igid oğulları idi. İkinci Qarabağ müharibəsində qələbə 3 minə yaxın Azərbaycan əsgər və zabitinin şəhidliyi bahasına başa gəldi. Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə can sağlığı versin! Bu müqəddəs qələbəmizə görə onların qarşısında baş əyirik!



**Penciyev Rauf,**
**Maliyyə və Mühasibat fakültəsinin 602-ci qrup tələbəsi**

## Qazi məzunumuz

**Bu möhtəşəm tarixi qələbədə kiçik də olsa, payım var...**

Mən, Novruzov Nürəddin İlqar oğlu 1999-cu il iyunun 4-də Sumqayıtda anadan olmuşam. 2016-cı ildə Sumqayıt şəhər 39 nömrəli tam orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olmuşam.

2020-ci ildə universiteti bitirərək, 13.07.2020-ci ildə müddətli hərbi xidmətə çağırıldım, 09.09.2020-ci ildə döyüş hazırlığı üçün bölünərək, N saylı hərbi hissəyə göndərildim. 27.09.2020-ci ildə baş kəşfiyyatçı vəzifəsində Goranboyun Tapqaraqoyunlu kəndindən hücuma keçərək, Talışkənd-Suqovuşan istiqamətində gedən döyüş əməlyatlarında iştirak etmişəm. Suqovuşan istiqamətində gedən döyüşlərdə kantuziya almışam. Döyüş bitdikdən sonra Qubadlıda, Laçında, Qaragöldə xidmətimi atıcı manqa komandiri kimi davam etdirmişəm.

Qürur duyuram ki, 44 günlük müharibədə iştirak etmişəm və möhtəşəm tarixi qələbədə kiçik də olsa, payım var...



**Nürəddin Novruzov,**
**ADİU-nun məzunu**

## ƏZİZ ŞUŞA, SƏN AZADSAN!

8 may 1992-ci il… Dumanlı dağlarımızın başını qara buludlar aldı. Bu dağlar düşmən mərmisindən qaraya, günahsız dinc əhalimizin axıdılmış qanından qırmızıya bürünmüşdü… Hər dəfə bu haqda danışanda boğazımızda nəsə düyünlənir, səsimiz titrəyir…

…Haqq səsimizi qaldırdıq, bizi duymadılar, səsimizi boğmağa çalışdılar, amma biz susmadıq. Təzyiqlərə məruz qaldıq, amma əyilmədik. 8 noyabrda Ali Baş Komandan İlham Əliyev Şəhidlər Xiyabanında Şuşanın işğaldan azad edildiyini elan etdi: "… Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" 8 noyabr tariximizə «Zəfər günü» kimi qızıl hərflərlə yazıldı. Cıdır düzündə qalib xalqımız, müzəffər əsgərlərimiz «Zəfər yallı»sı getdi. İki türk oğlu - Prezident İlham Əliyev və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada qələbəmizi qeyd etdilər. Cıdır düzündə onun sahibləri yallı getdilər, çiyin-çiyinə düşmənə yerini bildirərək...



**Aysel Allahverdiyeva,**
**Maliyyə və mühasibat fakültəsinin tələbəsi**

## 8 Noyabr - Zəfər günü

Vətən dünyaya göz açdığımız ilk andan etibarən bizi öz himayəsinə alaraq böyüdüb boya-başa çatdırır. Vətən müqəddəsdir, ülvidir. Mənim vətənim isə Azərbaycandır. Mən Azərbaycan qızıyam. Bu məmləkət azərbaycanlıların əbədi yurdu, tarixi vətənidir. Azərbaycan xalqı tarix boyu azadlığa və müstəqilliyə olan eşqi ilə tanınmışdır.

2020-ci ildə Ermənistanın təcavüzü ilə başlayan Vətən müharibəsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda aparılmış mübarizənin tarixinə yeni bir səhifə əlavə etdi. "Le Monde" jurnalının o dönəm yaydığı bir reportajda ifadə olunmuşdu ki, Ermənistan ordusunun məğlubiyyətə uğramış əsgərləri yaralı vəziyyətdə Şuşa şəhərindən qaçaraq, Xankəndi istiqamətində hərəkət edirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də xalqımıza Şuşanın azad edilməsi xəbərini verdi. Şuşa zəfəri, əslində, müharibənin gedişatını həll etdi. Bundan bir gün sonra 70-dən çox kəndin azad edilməsi xəbəri gəldi və növbəti gün Paşinyan Azərbaycan prezidentinin təkliflərini qəbul edərək kapitulyasiya aktını imzalamağa məcbur oldu.

Qarabağ uğrunda döyüşlərdə Polad Həşimov, Xudayar Yusifzadə, Dövlətzadə Cəbrayıl kimi neçə-neçə igidlərimizi itirdik. Hər bir qələbə xəbəri ilə sevindik, coşduq, lakin, eyni zamanda sinəmiz dağlandı, ürəyimiz parçalandı. Azərbaycan bütün dünyaya bir daha sübut etdi ki, vətənin övladları hər zaman onun keşiyində duracaqlar.



**Ayişə Heydərli,**
**Maliyyə və mühasibat fakültəsinin 682-ci qrup tələbəsi**

## 8 Noyabr - "Zəfər Günü" salnaməsi

*"Sülhü razılıqla yox, qələbə ilə əldə edirlər."*

*Mark Tulli Ciceron*

**1905... 1918... 1988-1993.... 2016... Və son olaraq, 2020...**

Bu illər Azərbaycan xalqı üçün acı, qəhər, qan ilə anılan illərdir. Mərd millətin namərd ilə üzləşdiyi, onlarla qarşı-qarşıya durduğu illərdir...

Erməni xisləti heç bir zaman qayğılı millətimin yaxasından düşməmiş, əksinə ildən-ilə artmışdır. Keçmişə baxdıqda görürük ki, ermənilər bu müqəddəs torpağımızda - Qarabağımızda bizimlə qonşu olduğu vaxtda necə üzə gülüb, arxadan zərbə endirməyə hazırlaşırdılar... 1988-1993-cü illərdə - SSRİ-nin süqutu və yeni bir dövlət - Azərbaycan Respublikasının yaranması dövründə xalqımız çox böyük çətinliklərə sinə gərdi. Yeni Azərbaycanın bu çətin anında Ulu Öndər Heydər Əliyev itirdiyimiz torpaqlarımızın, tökülən qanların qisasını alacağına öz xalqını əmin etdi. Azərbaycanın cəsarət, əzmkarlıq və şücaət nümunəsi olan Ali Baş Komandan İlham Heydər oğlu Əliyev Heydər Əliyevin əkdiyi bu toxumun qayğısına qalaraq, Azərbaycanın müstəqillik təməllərini sarsılmaz dərəcədə möhkəmləndirdi.

2020-ci il 27 sentyabr... Həm qələbəmizin başlanğıcı, Zəfər carçısı, həm də aramsız qəlb ağrısı, göz yaşı ilə anılan 27 sentyabr tarixi cəmi 44 gün çəkəcək Zəfər salnaməmizin ilk səhifəsi idi. Kim təxmin edə bilərdi ki, minlərlə igid oğullarımızın şəhidlik zirvəsinə ucaldığı bu qısa müharibədə Azərbaycan 30 illik ədalətsizliyi bərpa edə bilər?! Bəli, biz bunu bacardıq! Necə də unutulmaz tarix, necə də qürurverici anlar idi... Gənc, yaşlı, qadın, uşaq fərq etmədən hər kəs Zəfəri qeyd edir, unudulmaz xoşbəxtliyi yaşayırlar. Biz xoşbəxt gənclərik ki, qələbənin canlı şahidi olmuşuq. Çünki qələbə hər xalqa hər zaman qismət olmur.



**Teymurlu Jalə, Maliyyə və mühasibat fakültəsinin 682-ci qrup tələbəsi**

## Uğrunda ölən varsa, Vətəndir

***"İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq!"***

***İlham Əliyev***

Allah uğrunda və Vətən uğrunda Şəhid olanlar var. "Şəhidlərə ölü deməyin. Əksinə, onlar Allah qatında diridirlər, lakin siz bunu dərk etmirsiniz" (Bəqərə surəsi 2/154). Məhəmməd Peyğəmbər (s.a.v) şəhidlər haqqında demişdir: "Şəhid cənnətdədir, Allah qatında xeyirli bir mərtəbədə ikən, heç bir qul bir daha dünyaya qayıtmaq istəməz. Ancaq şəhidlər bundan müstəsnadır. Çünki şəhidlər şəhid olmanın necə üstün mərtəbə olduğunu bildikləri üçün yenidən şəhid olmaq üçün can atarlar."

Azərbaycanın müstəqilliyi, torpaqlarımızın toxunulmazlığı uğrunda canlarını fəda etmiş şəhidləri bir amal birləşdirir:

"Biz gəldi-gedərik, təki Vətən yaşasın!" Bu amal ilə yaşayan şəhidlər həm 1990-cı ilin qanlı 20 yanvar gecəsində, həm də II Qarabağ döyüşlərində təpədən dırnağadək silahlanmış düşmən qoşunlarının qarşısından geri çəkilmədilər, misli görünməmiş iradə və yenilməzlik nümayiş etdirdilər.



**Zümrüd Bayramova,**
**Biznes və menecment fakültəsinin 972-ci qrup tələbəsi**

## Çətin tarixdən Zəfər Günümüzə

Tarix boyu dövlətlər öz müstəqilliyini qorumaq, varlığını saxlamaq, vətəndaş- larının ölkə daxilində və xaricində təhlükəsizliyini və rifahını təmin etmək, beynəl-xalq birliyin bir üzvünə çevrilmək, davamlı iqtisadi, sosial və siyasi inkişafa nail olmaq üçün dövlətlərarası əlaqələrə üstünlük veriblər. Belə dövlətlər sülhü qorumaq üçün fəal şəkildə beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər. Lakin bəzi dövlətlər bu sıradan istisna edilir. Bu qrup dövlətlər yalan üzərində qurulan ölkələrdir. Başqa sözlə desək, bu xəyali qrupa rəsmi adı və tarixi sübutlarla Ermənistan Respublikası da daxildir.

27 sentyabr 2020-ci ildə səhər saatlarında ordumuzun Ermənistanın hücumlarına cavab tədbirlərinin kütləvi hala keçməsi ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sərəncam imzalayaraq, Ermənistan Respublikasına qarşı müharibə elan etdi. Bu an əminəm ki, sadəcə mənim yox, bütün Azərbaycan xalqının yadından heç bir zaman çıxmayacaq. Şanlı ordumuz müharibəyə başlayıb, məğlubedilməz Ermənistan ordusu mifini yerlə-yeksan etdi.

Tarixə "44 günlük müharibə" adı ilə daxil olmuş bu müharibədə Pakistan və Türkiyə bizə dövlət səviyyəsində rəsmi olaraq öz dəstəyini bildirdi. Bundan əlavə, İƏT (İslam Əməkdaşlıq Təşkilatı) və Qoşulmama Hərəkatının üzvləri də açıq şəkildə olmasa da, dolayı yollarla, yəni BMT-də Azərbaycana qarşı qəbul edilmək üçün qaldırılmış məsələlərin əleyhinə çıxaraq bizə dəstək oldular. Beləcə, xalqımızın dönəm-dönəm soyqırımılara uğradılması, müxtəlif zülmlərə məhkum edilməsi, torpaqlarının işğal olunması müharibə əzmimizi unutmağa imkan verməyərək, bizi əsr boyu dəyişməz etdi və bunun nəticəsi olaraq müharibədə qalib gələ bildik.



**Əkbərov Hikmət,**
**Maliyyə və mühasibat fakültəsinin 600-cü qrup tələbəsi**

## Zəfər tacı – Şuşa

8 noyabr Azərbaycanda Zəfər Günüdür. Həmin o tarixi gün hər bir azərbaycanlının qəlbində ən əziz gündür. Həmin o gün 30 illik həsrətlə yanıb tutuşan insanların rahat nəfəs aldığı, Birinci Qarabağ müharibəsində qəhrəmancasına vətənləri üçün canından keçənlərin qisasının alındığı gündür.

8 noyabr həm də Şuşamızın geri qayıtdığı gündür. Şuşa bizim üçün də, mənfur düşmən üçün də çox önəmli idi. Ona görə də Şuşanı geri qaytarmağımız müharibənin taleyini həll etdi.

Bizi Şuşamıza qovuşmağımızı, bu sevincimizi, fəxr və qürur hissini şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizə, qazilərimizə borcluyuq.

Rasim Abdullayev (polkovnik-leytenant), Elçin Alıyev (mayor), Şıxmir Ağamirov (milliyyətcə ləzgi), Namiq Cavadov (80 əsgərin həyatını xilas etmiş leytenant), Ceyhun Rzayev (çavuş), Tural Əhədov ( baş leytenant), Saleh Əsədov (çavuş), Xəyyam Əzizov (baş leytenant), Zahir Feyzullayev (leytenant), Taqi Əsgərov (19 yaşında 4 medalla təltif olunmuş əsgər) kimi igidlər "Şuşanın azad olunmasına görə " medalı ilə təltif olunmuşlar.

2021-ci il yanvarın 14-dən Şuşanın bərpasına başlanılmışdır.



**Nigar Abbasova,**
**Maliyyə və mühasibat fakültəsinin 602-ci qrup tələbəsi**

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Oqtay Güləliyev (1962-1992)



Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Oqtay Güləli oğlu Güləliyev 10 noyabr 1962-ci ildə Laçın rayonunun Xaçınyalı kəndində doğulmuşdur. 1982-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılmışdır. 1984-cü ildə Poltava Kooperativ İnstitutunun Bakı filialına qəbul olmuşdur. 1989-cu ildə institutun iqtisadiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirərək, Laçın rayon Daxili İşlər Şöbəsində pasport bölməsinə baş inspektor, sonra isə polis rotasının komandiri təyin olunmuşdur.

**Döyüşlərdə iştirakı**

Laçın polisində işlədiyi dövr Ermənistan-Azərbaycan münaqişəsinin daha da kəskinləşdiyi vaxta təsadüf etdiyindən Oqtay Güləliyev də polis işçisi kimi ermənilərə qarşı əməliyyatlarda iştirak etmiş, uğursuzluqla sona çatan "Daşaltı əməliyyatı" zamanı onun rotası mühasirəyə düşən 80 nəfər əsgəri təhlükəsiz zonaya çıxarmağa müvəffəq olmuşdur. Daha sonra Pircahan kəni yaxınlığında ağır yaralanmış, lakin müalicə olunaraq cəbhəyə qayıtmışdır. Oqtay Güləliyevin Laçın dəhlizini geri almaq üçün əməliyyat planı 1992-ci il sentyabrın 19-da uğurla başa çatmış və beləliklə Gorus-Şuşa yolu nəzarətə alınmışdır, lakin düşmən ərazini yenidən ələ keçirməyə müvəffəq olmuş və Oqtay Güləliyevin qüvvələri mühasirəyə düşmüşdür. 11 oktyabr 1992-ci ildə Hoçaz yüksəkliyində gedən ağır döyüş onun son döyüşü oldu. Döyüşçülərini təhlükəsiz yerə keçirə bilsə də, bu döyüşlərdə Oqtay Güləliyev özü qəhrəmancasına həlak olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli 599 saylı fərmanı ilə Güləliyev Oqtay Güləli oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Laçın şəhərində və Piçənis kəndində Oqtay Güləliyevin adına məktəb var.

**2015-ci ildə "Yaddaş" studiyasında milli qəhrəmana həsr edilmiş "Laçın qartalı" adlı sənədli film çəkilmişdir.**

# Bakcell Əhmədlidə yeni mağaza açdı




Ölkənin ən böyük özəl mobil operatoru olan Bakcell yeni mağazasını abunəçilərin ixtiyarına verib. Bununla birlikdə şirkət öz texnoloji yeniliklərini hər kəs üçün daha da yaxın etmək imkanı yaradıb.

Əhmədli metrostansiyasının yaxınlığında yerləşən yeni mağazada modern atmosfer, müasir standartlara cavab verən elektron növbə sistemi ilə yanaşı, abunəçilərin Bakcell-in məhsulları ilə yaxından tanış ola biləcəkləri elektron guşədə əməliyyatları sürətlə həyata keçirmək mümkün olacaq.Mağazada premium zəng xidməti olan VoLTE-nin aktivləşdirilməsi, yeni nəsil sim texnologiyası – eSim satışı, tarif və sürətli internet paketlərinin aktivləşdirilməsi ilə yanaşı 10 növdən çox xidmət təqdim olunur.

"Bakcell olaraq hər zaman innovasiyanın və rəqəmsallaşmanın gücünə inanmışıq. Əhmədli filialımız da bu gücü sizə daha yaxın etmək üçün bir vasitədir. Sərhədləri aşaraq innovativ yenilikləri sürətlə ölkənin hər nöqtəsinə çatdırmaq əsas hədəflərimizdən biridir." - deyə Bakcell-in Baş İcraçı Direktoru Klaus Müller bildirib.

Ölkənin dörd bir yanında "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirən Bakcell şirkəti "NEQSOL Holding"in tərkibinə daxildir.




# Mərkəzi Gömrük Hospitalında "Uşaqlarda qurğuşun zəhərlənməsinin profilaktikası" mövzusunda Dəyirmi masa keçirilib




27 oktyabr 2023-cü il tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və Azəri Toksikoloqlarının Dərnəyinin birgə təşkilatçılığı ilə "ÜST-nin qurğuşunla zəhərlənmənin qarşısının alınması üzrə beynəlxalq tədbirlər həftəsi"nə həsr edilmiş "Uşaqlarda qurğuşun zəhərlənməsinin profilaktikası" mövzusunda dəyirmi masa keçirilib.

Tədbirin rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, bu cür dəyirmi masaların keçirilməsinin əhəmiyyətini vurğulayıb. O, hazırda istehsal olunan və idxal olunan, məişətdə geniş istifadə olunan qurğuşun tərkibli boyaların uşaq orqanizminə zərərindən danışaraq, qeyd edib ki, Ümumdünya Səhiyyə Təşkilatının, Birləşmiş Millətlər Təşkilatının bir sıra qurumlarının, Qurğuşun boyalarının qadağan edilməsi üzrə Qlobal Alyansın həyata keçirdiyi tədbirlərə baxmayaraq, təəssüflər olsun ki, qurğuşun tərkibli boyaların istehsalı, idxalı və istifadəsi bir çox ölkələrdə, o cümlədən Azərbaycanda hələ də davam edir. Bu, qanunvericilik vasitəsilə tənzimlənə bilər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, t.e.d., əməkdar həkim Rəşad Mahmudov bildirib ki, istər valideyn kimi, istər həkim kimi, istərsə bir vətəndaş kimi, istərsə də millət vəkili kimi baxanda görürük ki, bu, hamının marağında olması vacib olan bir məsələdir və bunun indiyədək həllini tapmaması hər birimizi narahat edir. Biz uşaqlarımızı, gələcəyimizi qorumalıyıq. O, qısa müddətdə ekspertlərin iştirakı ilə qanun layihəsinin Milli Məclisə daxil olması və orada beynəlxalq standartlara uyğun qəbul olunmasına nail olunacağına əminliyini bildirib.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent, həkim-toksikoloq İsmayıl Əfəndiyev konseptual məruzə ilə çıxış edərək, uşaqlarda qurğuşunla zəhərlənmə barədə ətraflı məlumat verib və onun qarşısının alınması yollarından danışıb. Azərbaycanda qurğuşun boyalarının tənzimlənməsinin hazırkı vəziyyəti və bu sahədə əldə olunan irəliləyişlər barədə tədbirdə ətraflı məruzə ilə çıxış edən İsmayıl Əfəndiyev daha sonra dinləyicilərin çoxsaylı suallarını cavablandırıb.

Mərkəzi Gömrük Hospitalının təcili yardım həkimi, Azəri Toksikoloqlar Dərnəyinin katibi Leyla Fətullayeva "Qurğuşuna məruz qalmanın əhatə dairəsi və sağlamlıq üçün təhlükələri" mövzularında məruzələrlə çıxış etmiş, Mərkəzi Gömrük Hospitalının Laboratoriya şöbəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Səbinə İbrahimova və Mərkəzi Gömrük Hospitalının həkim pediatrı Təranə Göyüşova Azərbaycanda uşaqlarda və həssas qruplarda qanda qurğuşun və digər ağır metalların öyrənilməsi layihəsini təqdim ediblər. Tədbirdə Azərbaycan Səhiyyə Nazirliyinin, Azərbaycan Tibb Universitetinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, ÜST-nin, UNİCEF-in və digər təşkilatların nümayəndələri iştirak ediblər.

Dəyirmi masada tərkibində qurğuşun olan boyaların insan sağlamlığına, xüsusilə də uşaqların səhhətinə mənfi təsiri ilə bağlı aktual məsələlər, boyalarda qurğuşunun miqdarının tənzimlənməsi və ona nəzarət sahəsində digər ölkələrin əldə etdiyi nailiyyətlər, eləcə də bu istiqamətdə atılacaq zəruri addımlar müzakirə olunub.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




**Azəri Light və Brent markalı neftin bir barelinin 26 oktyabr – 2 noyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

**ALLAH RƏHMƏT ELƏSİN**

Professor Elşən Hacızadə energetika nazirinin müavini Kamal Abbasova anası
ŞÖLƏ İSMAYILOVANIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500